**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 18/13**

**Bakı şəhəri** **21 iyul 2025-ci il**

**"Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi və "Fiziki şəxslərin ticarət fəaliyyəti haqqında" 1-ticarət (fiziki şəxs) №-li rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 19 iyul tarixli 59/13 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 27 avqust tarixli 17/13 nömrəli qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 27 avqust tarixli 17/13 nömrəli qərarı ilə təsdiq edilmiş "Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı forması və "Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş" yeni redaksiyada verilsin (əlavə olunur).

2. Bu Qərar 2026-cı il fevralın 1-dən qüvvəyə minir.

3. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4. Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün.

5. Aparatın Ticarət statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

6. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti**
**icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**

**Əlavə 1**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il 21 iyul tarixli 18/13 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**4-ticarət №-li forma**
**Rüblük**

**R Ə S M İ  S T A T İ S T İ K A  H E S A B A T I**

**Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında**

| |
|---|
| "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hesabat forması üzrə məlumatların konfidensiallığına zəmanət verilir və onlardan yalnız ümumiləşdirilmiş şəkildə istifadə ediləcəkdir. |

Hesabat təqdim edən statistik vahidin:

adı ____________________________________

inzibati ərazi vahidinin və yaşayış məntəqəsinin
adı göstərilməklə dəqiq ünvanı _______________

______________________________________

Hesabat əsas fəaliyyəti ticarət, avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri olan fərdi sahibkarlar arasından Dövlət Statistika Komitəsi tərəfindən seçmə qaydada hesabata cəlb edilən statistik vahidlər tərəfindən hesabat rübündən sonrakı ayın 25-dək elektron formada Dövlət Statistika Komitəsinin internet səhifəsində (www.stat.gov.az) real vaxt rejimində təqdim edilir.

| **Hesabat formasının kodu** | **VÖEN** |
|---|---|
| **03108053** | |

Hesabat formasına və onun doldurulmasına dair rəy və təkliflərinizi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə göndərə bilərsiniz.
Elektron poçt ünvanı: hesabat@stat.gov.az

**20___ ilin ____ rübündə**

**I bölmə. Ümumi iqtisadi göstəricilər**

(manatla)

| Göstəricinin adı | Sətrin kodu | Hesabat rübündə |
|---|---|---|
| *A* | *B* | *1* |
| Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsindən gəlirlər, ƏDV və aksiz vergisi çıxılmaqla | 1 | |
| ondan: pərakəndə və topdansatış ticarət fəaliyyətindən | 1.1 | |
| avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmətlərdən | 1.2 | |
| kənd təsərrüfatı fəaliyyətindən | 1.3 | |
| sənaye fəaliyyətindən | 1.4 | |
| tikinti fəaliyyətindən | 1.5 | |
| nəqliyyat fəaliyyətindən | 1.6 | |
| digər fəaliyyətlərdən | 1.7 | |
| 1-ci sətirdən malların ixracından və qeyri-rezidentlərə göstərilmiş xidmətlərdən gəlir | 2 | |
| 1.1-ci sətirdən topdansatış ticarətdə müqavilə əsasında vasitəçilik (əmtəə brokerlərinin və digər vasitəçilərin) fəaliyyətindən əldə edilən gəlir | 3 | |
| Pərakəndə ticarət dövriyyəsi, ƏDV və aksiz vergisi daxil olmaqla | 4 | |
| ondan: ərzaq malları, içkilər və tütün məmulatları üzrə | 4.1 | |
| 4-cü sətirdən elektron ticarət dövriyyəsi | 5 | |
| 4-cü sətirdən POS - terminal vasitəsilə ödənilmiş satışın dəyəri | 6 | |
| 4-cü sətirdən yerli istehsal malları üzrə dövriyyə | 7 | |
| 4-cü sətirdən kreditlə satılmış malların dəyəri | 8 | |
| Hesabat rübünün sonuna pərakəndə ticarət şəbəkəsində mal ehtiyatlarının qalığı, ƏDV və aksiz vergisi daxil olmaqla | 9 | |
| Topdansatış ticarət dövriyyəsi, ƏDV və aksiz vergisi daxil olmaqla | 10 | |
| ondan: ərzaq malları, içkilər və tütün məmulatları üzrə | 10.1 | |
| 10-cu sətirdən elektron ticarət dövriyyəsi | 11 | |
| 10-cu sətirdən yerli istehsal malları üzrə dövriyyə | 12 | |

| | | |
|---|---|---|
| Hesabat rübünün sonuna topdansatış ticarət şəbəkəsində mal ehtiyatlarının qalığı, ƏDV və aksiz vergisi daxil olmaqla | 13 | |
| Əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, ƏDV daxil olmaqla | 14 | |
| ondan: xidmətlərə görə elektron ödəmələrin dəyəri | 14.1 | |
| İctimai iaşənin dövriyyəsi, ƏDV daxil olmaqla | 15 | |

**II bölmə. Digər iqtisadi göstəricilər**

(manatla)

| Göstəricinin adı | Sətrin kodu | Hesabat rübündə |
|---|---|---|
| *A* | *B* | *1* |
| Çəkilmiş xərclər | 16 | |
| o cümlədən: satmaq məqsədilə alınan mallara çəkilmiş xərclər | 16.1 | |
| xammal və material xərcləri | 16.2 | |
| elektrik enerjisi xərcləri | 16.3 | |
| nəqliyyat xərcləri | 16.4 | |
| rabitə xərcləri | 16.5 | |
| su və kanalizasiya xərcləri | 16.6 | |
| icarə ödənişləri | 16.7 | |
| reklam xərcləri | 16.8 | |
| cari təmir xərcləri | 16.9 | |
| digər xidmətlər üzrə xərclər | 16.10 | |
| kreditlər üzrə faizlərin ödənilməsi üzrə xərclər | 16.11 | |
| əməkhaqqı xərcləri | 16.12 | |
| ondan: qadınlara | 16.12.1 | |
| əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə | 16.12.2 | |
| məcburi dövlət sosial sığorta haqları | 16.13 | |
| işsizlikdən sığorta haqları | 16.14 | |
| icbari tibbi sığorta haqları | 16.15 | |
| istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqları | 16.16 | |

| | | |
|---|---|---|
| digər cari xərclər | 16.17 | |
| Xalis gəlir və ya zərər (-) | 17 | |
| Muzdla işləyənlərin orta siyahı sayı, nəfər | 18 | |
| onlardan:<br>qadınlar | 18.1 | |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 18.2 | |
| Muzdla işləyənlər tərəfindən işlənmiş adam-saatların miqdarı, adam-saat | 19 | |
| Fərdi sahibkarın mülkiyyətində olan əsas fondların ilin sonu vəziyyətinə dəyəri (IV rübə dair hesabatda əks etdirilir) | 20 | |

**III bölmə. Ticarət şəbəkəsi**
(Bu bölmə üzrə məlumatlar ilin sonu vəziyyətinə, IV rübə dair hesabatda əks etdirilir)

| **Göstəricinin adı** | **Sətrin kodu** | **Ölçü vahidi** | **IV rübdə** |
|---|---|---|---|
| *A* | *B* | *C* | *1* |
| **Pərakəndə ticarət obyektlərinin:**<br>**sayı** | **21** | vahid | |
| **ticarət sahəsi** | **22** | kv.metr | |
| 21-ci sətirdən: | | | |
| **iri ticarət mərkəzlərinin** (supermarket, yarmarka, ticarət cərgəsi, minimarket)<br>sayı | 23 | vahid | |
| ticarət sahəsi | 24 | kv.metr | |
| **dükanların** (ərzaq malları dükanı, qeyri-ərzaq malları dükanı və s.)<br>sayı | 25 | vahid | |
| ticarət sahəsi | 26 | kv.metr | |
| **köşklərin sayı** | 27 | vahid | |
| **Apteklərin sayı** | 28 | vahid | |
| **Ərzaq malları anbarlarının:**<br>sayı | 29 | vahid | |

| | | | |
|---|---|---|---|
| sahəsi | 30 | kv.metr | |
| həcmi | 31 | kub.metr | |
| **Qeyri-ərzaq malları anbarlarının:**<br>sayı | 32 | vahid | |
| sahəsi | 33 | kv.metr | |
| həcmi | 34 | kub.metr | |
| **Yanacaqdoldurma məntəqələrinin sayı** | 35 | vahid | |
| **Avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə obyektlərin sayı** | 36 | vahid | |

**IV bölmə. Satılmış malların və göstərilmiş xidmətlərin strukturu**

(manatla)

| **Malın və xidmətin**[1] | | **Sətrin kodu**[2] | **Hesabat rübündə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri** | **Hesabat rübünün sonuna mal ehtiyatlarının qalığı** |
|---|---|---|---|---|
| **kodu** | **adı** | | | |
| ***A*** | ***B*** | ***C*** | ***1*** | **2** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

[1] mal və xidmətlərin kodu və adı bu hesabat formasının əlavəsində verilmişdir;

[2] xidmətlər üzrə - 60, pərakəndə satış üzrə -70, topdansatış üzrə - 80 kodu yazılır.

Hesabatın formasının tərtib olunmasına sərf edilən vaxt* ____________________ (adam-saat)

* Rəsmi statistika hesabatlarının tərtib olunmasına sərf olunan vaxt adam-saatla ölçülür və hesabatın tərtib olunmasında iştirak edən işçilərin (işçinin) sayı onların (onun) həmin hesabatın tərtib olunmasına sərf etdikləri (etdiyi) vaxta vurulmaqla müəyyənləşdirilir.

______________________________ ________________________

İcraçının vəzifəsi, soyadı, tel.nömrəsi Rəhbərin soyadı, imzası

"_____"________________20___ il

*Hesabat formasına əlavə*

**Pərakəndə satış üzrə malların Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı**

| Sıra № | MNT kodu | Adı |
|---|---|---|
| | | **Ərzaq malları, içkilər və tütün məmulatları üzrə** |
| 1 | 47.00.11.10 | Meyvələrin pərakəndə satışı |
| 2 | 47.00.11.31 | Kartofun pərakəndə satışı |
| 3 | 47.00.11.39 | Tərəvəzin pərakəndə satışı |
| 4 | 47.00.12.00 | Emal edilmiş meyvə və tərəvəzin pərakəndə satışı |
| 5 | 47.00.13.10 | Ətin pərakəndə satışı |
| 6 | 47.00.13.20 | Ev quşları ətinin pərakəndə satışı |
| 7 | 47.00.14.10 | Ət məhsullarının pərakəndə satışı (quşu əti məhsulları daxil edilməklə) |
| 8 | 47.00.14.20 | Ət konservlərinin pərakəndə satışı (quş ətindən konservlər daxil edilməklə) |
| 9 | 47.00.15.10 | Balığın pərakəndə satışı |
| 10 | 47.00.15.20 | Balıq konservlərinin pərakəndə satışı |
| 11 | 47.00.15.30 | Xərçəngkimilər və molyuskların pərakəndə satışı |
| 12 | 47.00.16.00 | Çörək məhsullarının pərakəndə satışı |
| 13 | 47.00.17.10 | Pirojna və undan hazırlanan məmulatların pərakəndə satışı |
| 14 | 47.00.17.20 | Şəkər qatılmış şirniyyat məmulatlarının pərakəndə satışı |
| 15 | 47.00.18.11 | Südün pərakəndə satışı |
| 16 | 47.00.18.12 | Süd konservlərinin pərakəndə satışı |
| 17 | 47.00.18.13 | Kərə yağının pərakəndə satışı |
| 18 | 47.00.18.14 | Üzlü süd məhsullarının pərakəndə satışı |
| 19 | 47.00.18.15 | Pendir və brınzanın pərakəndə satışı |
| 20 | 47.00.18.16 | Xamanın pərakəndə satışı |
| 21 | 47.00.18.17 | Dondurmanın pərakəndə satışı |
| 22 | 47.00.18.19 | Sair süd məhsullarının pərakəndə satışı |
| 23 | 47.00.19.00 | Yumurtanın pərakəndə satışı |
| 24 | 47.00.21.00 | Qəhvə, çay, kakao və ədviyyatın pərakəndə satışı |
| 25 | 47.00.22.11 | Bitki yağının pərakəndə satışı |
| 26 | 47.00.22.12 | Ərinmiş qida piylərinin pərakəndə satışı |
| 27 | 47.00.22.13 | Marqarin məhsullarının pərakəndə satışı |
| 28 | 47.00.23.00 | Homogenləşdirilmiş qida məhsullarının və tibbi məqsədli qida məhsullarının pərakəndə satışı |
| 29 | 47.00.24.11 | Qəndin pərakəndə satışı |
| 30 | 47.00.24.12 | Mürəbbə, cem, povidlo və s. pərakəndə satışı |
| 31 | 47.00.24.13 | Unun pərakəndə satışı |

| | | |
|---|---|---|
| 32 | 47.00.24.14 | Duzun pərakəndə satışı |
| 33 | 47.00.24.15 | Yarma və paxlalıların pərakəndə satışı |
| 34 | 47.00.24.16 | Makaronun pərakəndə satışı |
| 35 | 47.00.24.90 | Sair qida məhsullarının pərakəndə satışı |
| 36 | 47.00.25.10 | Araq və araq məmulatlarının pərakəndə satışı |
| 37 | 47.00.25.20 | Konyakın pərakəndə satışı |
| 38 | 47.00.25.30 | Şərabın pərakəndə satışı |
| 39 | 47.00.25.40 | Pivənin pərakəndə satışı |
| 40 | 47.00.25.50 | Şampan şərabının pərakəndə satışı |
| 41 | 47.00.25.60 | Sair spirtli içkilərin pərakəndə satışı |
| 42 | 47.00.26.10 | Spirtsiz içkilərin pərakəndə satışı |
| 43 | 47.00.26.20 | Mineral suların pərakəndə satışı |
| 44 | 47.00.27.00 | Tütün məmulatlarının pərakəndə satışı |
| 45 | 47.00.87.10 | Diri kənd təsərrüfatı heyvanlarının pərakəndə satışı (diri mal-qara, qoyun-keçi, quşlar, atlar və s. diri heyvanlar ) |
| 46 | 47.00.87.20 | Digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalının pərakəndə satışı |
| | | **Qeyri-ərzaq malları üzrə** |
| 47 | 45.11.21 | İxtisaslaşdırılmış mağazalarda yeni sərnişin avtonəqliyyat vasitələrinin pərakəndə satışı |
| 48 | 45.11.22.00 | İstifadədə olmuş sərnişin avtonəqliyyat vasitələrinin pərakəndə satışı |
| 49 | 45.11.23.00 | Təcili-tibbi yardım maşınları, mikroavtobuslar və s. kimi yeni, ixtisaslaşdırılmış sərnişin avtonəqliyyat vasitələrinin və yüksək keçid qabiliyyətinə malik avtonəqliyyat vasitələrinin (çəkisi 3,5 tondan artıq olmayan) ixtisaslaşdırılmış mağazalarda pərakəndə satışı |
| 50 | 45.11.31.00 | Minik və yük avtonəqliyyat vasitələrinin internet vasitəsilə pərakəndə satışı |
| 51 | 45.11.39.00 | Digər qruplara daxil edilməyən sair minik və yüngül avtonəqliyyat vasitələrinin pərakəndə satışı |
| 52 | 45.19.21.00 | Yük avtomobillərinin, arabaların, qoşquların, yarımqoşquların və avtobusların ixtisaslaşdırılmış pərakəndə satışı |
| 53 | 45.19.22.00 | Yaşayış üçün avtofurqonların, avtoqoşquların və sair turist avtonəqliyyatı vasitələrinin pərakəndə satışı |
| 54 | 45.19.31.00 | Sair avtomobillərin internet vasitəsilə pərakəndə satışı |
| 55 | 45.19.39.00 | Digər qruplara daxil edilməyən avtonəqliyyat vasitələrinin sair pərakəndə satışı |
| 56 | 45.32.11.00 | Şinlərin ixtisaslaşdırılmış pərakəndə satışı |
| 57 | 45.32.12.00 | Avtonəqliyyat vasitələri üçün sair hissə və ləvazimatların ixtisaslaşdırılmış pərakəndə satışı |
| 58 | 45.32.21.00 | Avtonəqliyyat vasitələri üçün hissə və ləvazimatların internet vasitəsilə pərakəndə satışı |
| 59 | 45.32.22.00 | Avtonəqliyyat vasitələri üçün hissə və ləvazimatların poçt vasitəsilə pərakəndə satışı |
| 60 | 45.32.29.00 | Avtonəqliyyat vasitələri üçün digər qruplara daxil edilməyən hissə |

| | | |
|---|---|---|
| | | və ləvazimatların sair pərakəndə satışı |
| 61 | 45.40.20.00 | Motosikletlərin və onlara aid olan hissə və ləvazimatların ixtisaslaşdırılmış pərakəndə satışı |
| 62 | 45.40.30.00 | Motosikletlərin və onlara aid olan hissə və ləvazimatların sair pərakəndə satışı |
| 63 | 47.00.31.00 | Kompüterlərin, periferiya qurğularının və proqram təminatının pərakəndə satışı |
| 64 | 47.00.32.00 | Telekommunikasiya qurğularının pərakəndə satışı |
| 65 | 47.00.33.10 | Radioqəbuledicilərin pərakəndə satışı |
| 66 | 47.00.33.20 | Televizorların pərakəndə satışı |
| 67 | 47.00.33.30 | Maqnitafonların pərakəndə satışı |
| 68 | 47.00.33.40 | Videomaqnitafonların pərakəndə satışı |
| 69 | 47.00.33.90 | Sair aparatların pərakəndə satışı |
| 70 | 47.00.41.00 | Dəmir (tikinti) məmulatlarının pərakəndə satışı |
| 71 | 47.00.42.00 | Rəng, lak və emaldan hazırlanan məmulatların pərakəndə satışı |
| 72 | 47.00.43 | Təbəqə şüşələrin pərakəndə satışı |
| 73 | 47.00.44.00 | Ot biçmək və şitil əkmək üçün avadanlıqların pərakəndə satışı |
| 74 | 47.00.45.00 | Su kəməri və istilik avadanlığı, istismar materialları və ləvazimatlarının pərakəndə satışı |
| 75 | 47.00.46.00 | Santexnika avadanlıqlarının pərakəndə satışı |
| 76 | 47.00.47.00 | Əl alətlərinin pərakəndə satışı |
| 77 | 47.00.49.10 | Daş kubikin pərakəndə satışı |
| 78 | 47.00.49.20 | Kərpicin pərakəndə satışı |
| 79 | 47.00.49.30 | Sementin pərakəndə satışı |
| 80 | 47.00.49.40 | Şiferin pərakəndə satışı |
| 81 | 47.00.49.50 | Üzlük saxsı piltələrin pərakəndə satışı |
| 82 | 47.00.49.60 | Hissələr yığımı, təsərrüfat blokları daxil edilməklə, hazır bağ evlərinin pərakəndə satışı |
| 83 | 47.00.49.70 | Ağac (tikinti) materiallarının pərakəndə satışı |
| 84 | 47.00.49.90 | Sair tikinti materiallarının pərakəndə satışı |
| 85 | 47.00.51.10 | Pambıq parçaların pərakəndə satışı |
| 86 | 47.00.51.20 | Yun parça və yaylıqların pərakəndə satışı |
| 87 | 47.00.51.30 | İpək parçaların pərakəndə satışı |
| 88 | 47.00.51.40 | Kətan parçaların pərakəndə satışı |
| 89 | 47.00.51.60 | Sair toxuculuq məmulatlarının pərakəndə satışı |
| 90 | 47.00.51.70 | Qalantereya məmulatlarının pərakəndə satışı |
| 91 | 47.00.51.80 | Sapın pərakəndə satışı |
| 92 | 47.00.52.00 | Pərdə və tül pərdələrin pərakəndə satışı |
| 93 | 47.00.53.10 | Divar kağızının pərakəndə satışı |
| 94 | 47.00.53.20 | Linoleumun və sair döşəmə örtüklərinin pərakəndə satışı |
| 95 | 47.00.53.30 | Xalça və xalça məmulatlarının pərakəndə satışı |
| 96 | 47.00.54.10 | Soyuducuların pərakəndə satışı |

| | | |
|---|---|---|
| 97 | 47.00.54.20 | Paltaryuyan maşınların pərakəndə satışı |
| 98 | 47.00.54.30 | Tozsoranların pərakəndə satışı |
| 99 | 47.00.54.40 | Tikiş maşınlarının pərakəndə satışı |
| 100 | 47.00.54.50 | Elektrik ütülərinin pərakəndə satışı |
| 101 | 47.00.54.90 | Sair elektrik məişət cihazlarının pərakəndə satışı |
| 102 | 47.00.55.00 | Məişət mebellərinin pərakəndə satışı |
| 103 | 47.00.56.10 | Çilçıraqların pərakəndə satışı |
| 104 | 47.00.56.90 | Sair işıqlandırma cihazlarının pərakəndə satışı |
| 105 | 47.00.57.00 | Ağac, mantar və hörmə məmulatlarının pərakəndə satışı |
| 106 | 47.00.58 | Musiqi alətlərinin və partituraların pərakəndə satışı |
| 107 | 47.00.59.10 | Şüşə qab-qacaqların pərakəndə satışı |
| 108 | 47.00.59.20 | Çini-saxsı qabların pərakəndə satışı |
| 109 | 47.00.59.30 | Metal qab-qacaqların pərakəndə satışı |
| 110 | 47.00.59.50 | Qeyri-elektrik məişət cihazlarının, digər qruplara daxil edilməyən məmulat və avadanlıqların pərakəndə satışı |
| 111 | 47.00.61.00 | Kitabların pərakəndə satışı |
| 112 | 47.00.62.00 | Qəzet və jurnalların pərakəndə satışı |
| 113 | 47.00.63 | Dəftərxana ləvazimatlarının pərakəndə satışı |
| 114 | 47.00.64 | Musiqi və video yazıların pərakəndə satışı |
| 115 | 47.00.65.10 | İdman mallarının pərakəndə satışı |
| 116 | 47.00.65.20 | Velosiped və mopedlərin pərakəndə satışı |
| 117 | 47.00.66.00 | Kempinq avadanlıqlarının pərakəndə satışı |
| 118 | 47.00.67.00 | Oyun və oyuncaqların pərakəndə satışı |
| 119 | 47.00.68.00 | Poçt markaları və sikkələrin pərakəndə satışı |
| 120 | 47.00.69.00 | Suvenirlərin pərakəndə satışı |
| 121 | 47.00.71.10 | Paltarın və alt geyimlərinin pərakəndə satışı |
| 122 | 47.00.71.20 | Baş geyimlərinin pərakəndə satışı |
| 123 | 47.00.71.30 | Trikotaj məmulatlarının pərakəndə satışı |
| 124 | 47.00.71.40 | Xəz və xəz məmulatlarının pərakəndə satışı |
| 125 | 47.00.71.50 | Corab məmulatlarının pərakəndə satışı |
| 126 | 47.00.71.90 | Sair geyimin pərakəndə satışı |
| 127 | 47.00.72 | Ayaqqabının pərakəndə satışı |
| 128 | 47.00.73.00 | Dəridən hazırlanan məmulatların və yol ləvazimatlarının pərakəndə satışı |
| 129 | 47.00.74.10 | Dərman vasitələrinin pərakəndə satışı |
| 130 | 47.00.74.20 | Sarğı materiallarının pərakəndə satışı |
| 131 | 47.00.74.90 | Sair əczaçılıq məhsullarının pərakəndə satışı |
| 132 | 47.00.75.00 | Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının pərakəndə satışı |
| 133 | 47.00.76.00 | Kosmetika məmulatının və tualet ləvazimatlarının pərakəndə satışı |
| 134 | 47.00.77.00 | Güllərin, bitkilərin və toxumların pərakəndə satışı |
| 135 | 47.00.78.00 | Gübrələrin və aqrokimyəvi məhsulların pərakəndə satışı |

| | | |
|---|---|---|
| 136 | 47.00.79.10 | Ev heyvanlarının pərakəndə satışı (dekorativ balıqlar və quşlar, tısbağa və s.) |
| 137 | 47.00.79.20 | Ev heyvanları üçün yem məhsullarının pərakəndə satışı |
| 138 | 47.00.81.10 | Avtomobil benzininin pərakəndə satışı |
| 139 | 47.00.81.20 | Dizel yanacağının pərakəndə satışı |
| 140 | 47.00.81.30 | Yağların pərakəndə satışı |
| 141 | 47.00.82.10 | Saatların pərakəndə satışı |
| 142 | 47.00.82.20 | Zərgərlik məmulatlarının pərakəndə satışı |
| 143 | 47.00.83.10 | Fotoaparatların pərakəndə satışı |
| 144 | 47.00.83.20 | Sair foto ləvazimatının, optik və dəqiq cihazların pərakəndə satışı |
| 145 | 47.00.84.11 | Paltar sabununun pərakəndə satışı |
| 146 | 47.00.84.12 | Əl-üz sabununun pərakəndə satışı |
| 147 | 47.00.84.13 | Sintetik yuyucu maddələrin pərakəndə satışı |
| 148 | 47.00.85 | Məişət təyinatlı yanacağın, balon qazının, daş kömürün və odunun pərakəndə satışı |
| 149 | 47.00.86.00 | Digər qruplara daxil edilməyən sair qeyri-ərzaq təsərrüfat mallarının pərakəndə satışı |
| 150 | 47.00.88.00 | Digər qruplara daxil edilməyən maşın və avadanlıqların pərakəndə satışı |
| 151 | 47.00.89.00 | Digər qruplara daxil edilməyən qeyri ərzaq qeyri-təsərrüfat mallarının pərakəndə satışı |
| 152 | 47.00.91.00 | Əntiq əşyaların pərakəndə satışı |
| 153 | 47.00.92.00 | İkinci əl kitabların mağazalarda pərakəndə satışı |
| 154 | 47.00.99.00 | Sair ikinci əl malların mağazalarda pərakəndə satışı |

**Topdansatış üzrə malların Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı**

| Sıra № | MNT kodu | Adı |
|---|---|---|
| | | **Ərzaq malları, içkilər və tütün məmulatları üzrə** |
| 1 | 46.21.11.00 | Taxılın topdan satışı |
| 2 | 46.21.12.00 | Toxumların (yağlı toxumlardan başqa) topdan satışı |
| 3 | 46.21.13.00 | Yağlı toxumların və tərkibində yağ olan meyvələrin topdan satışı |
| 4 | 46.21.14.00 | Yem məhsullarının topdan satışı |
| 5 | 46.21.19.00 | Digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalının topdan satışı |
| 6 | 46.21.20.00 | Emal edilməmiş tütünün topdan satışı |
| 7 | 46.23.10.00 | Diri heyvanların topdan satışı |
| 8 | 46.31.11.10 | Təzə meyvələrin topdan satışı |
| 9 | 46.31.11.20 | Təzə tərəvəzin topdan satışı |
| 10 | 46.31.11.30 | Kartofun topdan satışı |
| 11 | 46.31.12.00 | Emal edilmiş meyvə və tərəvəzin topdan satışı |
| 12 | 46.32.11.00 | Ətin, ev və ov quşlarının topdan satışı |

| | | |
|---|---|---|
| 13 | 46.32.12.00 | Ət məhsullarının topdan satışı (ev quşlarının ət məhsulları da daxil edilməklə) |
| 14 | 46.33.11.00 | Süd məhsullarının topdan satışı |
| 15 | 46.33.12.00 | Yumurtaların topdan satışı |
| 16 | 46.33.13.00 | Qida yağı və piylərinin topdan satışı |
| 17 | 46.34.11.00 | Meyvə və tərəvəz şirələrinin mineral suların və spirtsiz içkilərin topdan satışı |
| 18 | 46.34.12.00 | Spirtli içkilərin topdan satışı |
| 19 | 46.35.10.00 | Tütün məmulatlarının topdan satışı |
| 20 | 46.36.11.00 | Şəkərin topdan satışı |
| 21 | 46.36.12.00 | Çörək-bulka məmulatlarının topdan satışı |
| 22 | 46.36.13.00 | Şokolad və şəkərli şirniyyat məmulatlarının topdan satışı |
| 23 | 46.37.10.00 | Qəhvə, çay, kakao və ədviyyatın topdan satışı |
| 24 | 46.38.10.00 | Balıq, xərçəngkimilər və molyuskların topdan satışı |
| 25 | 46.38.21.00 | Homogenləşdirilmiş qida məhsullarının və tibbi məqsədli qida məhsullarının topdan satışı |
| 26 | 46.38.29.00 | Digər qruplara daxil edilməyən sair ərzaq məhsullarının topdan satışı |
| | | **Qeyri-ərzaq malları üzrə** |
| 27 | 45.11.11.00 | Sərnişin avtonəqliyyat vasitələrinin topdan satışı |
| 28 | 45.11.12.00 | İxtisaslaşdırılmış sərnişin nəqliyyatı vasitələrinin, təcili-tibbi yardım maşınlarının və mikroavtobusların, xizəkli-tırtıllı avtomobillərin topdan satışı (yük götürmə qabiliyyəti 3,5 tona qədər) |
| 29 | 45.19.11.00 | Yük avtomobillərinin, arabaların, qoşquların, yarımqoşquların və avtobusların topdan satışı |
| 30 | 45.19.12.00 | Yaşayış üçün avtofurqonlar və avtoqoşquların və sair turist avtonəqliyyatı vasitələrinin topdan satışı |
| 31 | 45.31.11.00 | Avtonəqliyyat vasitələri üçün rezin şinlərin və şin üçün kameraların topdan satışı |
| 32 | 45.31.12.00 | Avtonəqliyyat vasitələri üçün sair hissə və ləvazimatların topdan satışı |
| 33 | 45.40.10.00 | Motosikletlərin və onlara aid olan hissə və ləvazimatların topdan satışı |
| 34 | 46.22.10.00 | Güllərin və bitkilərin topdan satışı |
| 35 | 46.24.10.00 | Xam və aşılanmış dərilərin topdan satışı |
| 36 | 46.41.11.00 | Toxuma üçün ipliyin topdan satışı |
| 37 | 46.41.12.00 | Parçaların topdan satışı |
| 38 | 46.41.13.00 | Kətandan yeməkxana ağlarının, pərdələrin və evdə işlədilən müxtəlif parça materiallarının topdan satışı |
| 39 | 46.41.14.00 | Qalantereya mallarının topdan satışı |
| 40 | 46.42.11.10 | Üst geyimin topdan satışı |
| 41 | 46.42.11.20 | Alt geyimin topdan satışı |
| 42 | 46.42.11.30 | Xəz geyimlərin topdan satışı |
| 43 | 46.42.11.50 | Geyim aksesuarlarının topdan satışı |
| 44 | 46.42.12.00 | Ayaqqabının topdan satışı |
| 45 | 46.43.11 | Radio, televiziya və fotoqrafik cihazlardan başqa, elektrik məişət cihazlarının topdan satışı |

| | | |
|---|---|---|
| 46 | 46.43.12.00 | Radio, televiziya, video və rəqəmli videodisk aparatlarının topdan satışı |
| 47 | 46.43.13.00 | Qramafon vallarının, audiolent və videolentlərin, kompakt disklərin və rəqəmli videodisklərin (yazılmamış lentlərdən başqa) topdan satışı |
| 48 | 46.43.14.00 | Fotoqrafik və optik cihazların topdan satışı |
| 49 | 46.44.11.00 | Şüşə, çini və saxsıdan olan məmulatların topdan satışı |
| 50 | 46.44.12.00 | Təmizləyici vasitələrin topdan satışı |
| 51 | 46.45.10.00 | Ətriyyat və kosmetikanın topdan satışı |
| 52 | 46.46.11.00 | Əczaçılıq məhsullarının və dərman vasitələrinin topdan satışı |
| 53 | 46.46.12.00 | Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının topdan satışı |
| 54 | 46.47.11 | Məişət mebelinin topdan satışı |
| 55 | 46.47.12.00 | İşıqlandırma avadanlığının topdan satışı |
| 56 | 46.47.13.00 | Xalı və xalçaların topdan satışı |
| 57 | 46.48.10.00 | Saatların və zərgərlik məmulatlarının topdan satışı |
| 58 | 46.49.11.00 | Kəsici məmulatların və evdə işlədilən metal məmulatların topdan satışı |
| 59 | 46.49.12.00 | Hörmə məmulatların, mantar məmulatların, çəllək məmulatı və sair ağacdan hazırlanan məmulatların topdan satışı |
| 60 | 46.49.19.00 | Digər qruplara daxil edilməyən məişət məmulatı və avadanlığının topdan satışı |
| 61 | 46.49.21.00 | Kitabların topdan satışı |
| 62 | 46.49.22.00 | Jurnalların və qəzetlərin topdan satışı |
| 63 | 46.49.23.00 | Dəftərxana ləvazimatının topdan satışı |
| 64 | 46.49.31.00 | Musiqi alətlərinin və partituraların topdan satışı |
| 65 | 46.49.32.00 | Oyun və oyuncaqların topdan satışı |
| 66 | 46.49.33.00 | İdman mallarının, o cümlədən velosipedlərin topdan satışı |
| 67 | 46.49.34.00 | Dəri məmulatı və yol ləvazimatlarının topdan satışı |
| 68 | 46.49.35.00 | Poçt markaları və sikkələrin topdan satışı |
| 69 | 46.49.36.00 | Suvenirlərin və bədii məmulatların topdan satışı |
| 70 | 46.49.39.00 | Digər qruplara daxil edilməyən sair istehlak məmulatlarının topdan satışı |
| 71 | 46.51.10.00 | Kompüterlərin, kompüter periferiya avadanlığı və proqram təminatının topdan satışı |
| 72 | 46.52.11.00 | Telekommunikasiya avadanlıqlarının və hissələrinin topdan satışı |
| 73 | 46.52.12.00 | Elektron avadanlıqların və hissələrin topdan satışı |
| 74 | 46.52.13.00 | Yazılmamış audiolent və videolentlərin və kassetlərin, maqnit və optik disklərin, kompakt və rəqəmli videodisklərin topdan satışı |
| 75 | 46.61.11.00 | Kənd və meşə təsərrüfatı maşınlarının, avadanlıqlarının və ehtiyyat hissələrin, o cümlədən traktorların topdan satışı |
| 76 | 46.61.12.00 | Otbiçən maşınların və şitil əkən maşınların, avadanlıqların və ehtiyyat hissələrin topdan satışı |
| 77 | 46.62.11.00 | Ağacı emal etmək üçün dəzgahların topdan satışı |
| 78 | 46.62.12.00 | Metalı emal etmək üçün dəzgahların topdan satışı |
| 79 | 46.62.19.00 | Sair materialları emal etmək üçün dəzgahların topdan satışı |
| 80 | 46.63.10.00 | Mədənçıxarma sənayesi, tikinti və mülki-tikinti üçün maşınların |

| | | |
|---|---|---|
| | | topdan satışı |
| 81 | 46.64.10.00 | Toxuculuq sənayesi üçün maşınların, tikiş və toxuculuq maşınlarının topdan satışı |
| 82 | 46.65.10.00 | Ofis mebelinin topdan satışı |
| 83 | 46.66.10 | Sair ofis maşınlarının və avadanlıqlarının topdan satışı |
| 84 | 46.69.11.00 | Avtomobillər, motosikletlər və velosipedlərdən başqa, nəqliyyat vasitələrinin topdan satışı |
| 85 | 46.69.12.00 | Maşın və avadanlıqla əlaqədar olan istismar materiallarının və ləvazimatların topdan satışı |
| 86 | 46.69.13.00 | Qaldırıcı-nəqliyyat avadanlığının topdan satışı |
| 87 | 46.69.14.00 | Qida məhsullarının və tütünün istehsalı üçün maşınların topdan satışı |
| 88 | 46.69.15 | Peşəkar elektrik maşınlarının, aparat və materialların topdan satışı |
| 89 | 46.69.19.00 | Sair ümumi və xüsusi məqsədlər üçün maşınların, cihaz və avadanlıqların topdan satışı |
| 90 | 46.71.11.00 | Bərk yanacaqların topdan satışı |
| 91 | 46.71.12.00 | Benzinin, o cümlədən aviasiya benzininin topdan satışı |
| 92 | 46.71.13.00 | Sair maye və qazşəkilli yanacaqların və buna bənzər məhsulların topdan satışı |
| 93 | 46.72.11.00 | Dəmir filizlərinin topdan satışı |
| 94 | 46.72.12.00 | Əlvan metal filizlərinin topdan satışı |
| 95 | 46.72.13.00 | İlkin formada olan qara metalların topdan satışı |
| 96 | 46.72.14.00 | İlkin formada olan əlvan metalların topdan satışı |
| 97 | 46.73.11.00 | Emal edilməmiş ağacın topdan satışı |
| 98 | 46.73.12.00 | Ağacın ilkin emalı məhsullarının topdan satışı |
| 99 | 46.73.13.00 | Santexnika avadanlıqlarının topdan satışı |
| 100 | 46.73.14.00 | Boya, lak və emalların topdan satışı |
| 101 | 46.73.15.00 | Təbəqə şüşələrin topdan satışı |
| 102 | 46.73.16.00 | Sair tikinti materiallarının topdan satışı |
| 103 | 46.73.17.00 | Divar kağızlarının topdan satışı |
| 104 | 46.73.18.00 | Döşəmə örtüklərinin topdan satışı (xalçalardan başqa) |
| 105 | 46.74.11.00 | Dəmir məmulatlarının topdan satışı |
| 106 | 46.74.12.00 | Su kəmərləri və istilik avadanlıqları və materiallarının topdan satışı |
| 107 | 46.74.13.00 | Əl alətlərinin topdan satışı |
| 108 | 46.75.11.00 | Gübrələrin və aqrokimyəvi məhsulların topdan satışı |
| 109 | 46.75.12 | Sənaye kimyəvi maddələrin topdan satışı |
| 110 | 46.76.11.00 | Kağız və kartonun topdan satışı |
| 111 | 46.76.12.00 | Toxuculuq liflərinin topdan satışı |
| 112 | 46.76.13.00 | İlkin formada plastmas və rezin məmulatların topdan satışı |
| 113 | 46.76.19.00 | Kənd təsərrüfatı məhsullarından başqa, digər qruplara daxil edilməyən sair aralıq məhsulların topdan satışı |
| 114 | 46.77.10.00 | Tullantı və qırıntıların topdan satışı |
| 115 | 46.90.10.00 | İxtisaslaşdırılmamış topdan satış |

**Avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmətlərin Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı**

| Sıra № | MNT kodu | Adı |
|---|---|---|
| 1 | 45.20.11.00 | Minik və yüngül yük avtonəqliyyat vasitələrinin elektrik sisteminin, şin və gövdələrin təmiri üzrə xidmətlər istisna olmaqla, adi texniki qulluq və təmir üzrə xidmətlər |
| 2 | 45.20.12.00 | Minik və yük avtonəqliyyat vasitələrinin elektrik sisteminin təmiri üzrə xidmətlər |
| 3 | 45.20.13.00 | Minik və yük avtonəqliyyat vasitələrinin şinlərinin təmiri, o cümlədən təkərlərinin tənzimlənməsi və balanslaşdırılması üzrə xidmətlər |
| 4 | 45.20.14.00 | Minik və yük avtonəqliyyat vasitələrinin gövdələrinin təmiri üzrə xidmətlər və oxşar xidmətlər (qapıların, qıfılların, pəncərələrin təmiri, yenidən rəngləmə, zədələnmədən sonra təmir) |
| 5 | 45.20.21.00 | Sair avtonəqliyyat vasitələrinə elektrik sistemlərinin təmirindən başqa, sadə texniki qulluq və təmir üzrə xidmətlər |
| 6 | 45.20.22.00 | Sair avtonəqliyyat vasitələrinin elektrik sistemlərinin təmiri üzrə xidmətlər |
| 7 | 45.20.23.00 | Sair avtonəqliyyat vasitələrinin gövdələrinin təmiri üzrə xidmətlər və oxşar xidmətlər (qapıların, qıfılların, pəncərələrin təmiri, yenidən rəngləmə, zədələnmədən sonra təmir) |
| 8 | 45.20.30.10 | Maşınların yuyulması və təmizlənməsi |
| 9 | 45.20.30.40 | Yolda (avtonəqliyyat vasitələrinə) təcili texniki qulluq göstərilməsi üzrə xidmətlər |
| 10 | 45.40.50.00 | Motosikletlərin təmiri və onlara texniki xidmət |

**Əlavə 2**
Azərbaycan Respublikası Dövlət Statistika
Komitəsinin 2025-ci il 21 iyul tarixli 18/13
nömrəli qərarı ilə təsdiq edilmişdir.

**"Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı formasının doldurulmasına dair**

## G Ö S T Ə R İ Ş

### 1. Ümumi müddəalar

**1.1.** "Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında" 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı formasını (bundan sonra - hesabat forması) əsas fəaliyyəti ticarət, avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri olan fərdi sahibkarlar (sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər) arasından Dövlət Statistika Komitəsi tərəfindən seçmə qaydada hesabata cəlb edilən statistik vahidlər real vaxt rejimində təqdim edirlər.

### 2. Hesabat formasında istifadə edilən əsas anlayışlar

**2.1. Pərakəndə ticarət dövriyyəsi** – pərakəndə satış üzrə malların məcmu dəyəri;
**2.2. Pərakəndə satış** – bilavasitə sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan, yalnız şəxsi, ailə, məişət və digər bu kimi məqsədlər üçün malların satışı ilə bağlı ticarət fəaliyyəti;
**2.3. Topdansatış ticarət dövriyyəsi** – topdansatış üzrə malların məcmu dəyəri;
**2.4. Topdansatış** – şəxsi, ailə, məişət və digər bu kimi istehlak təyinatı istisna olmaqla, sahibkarlıq fəaliyyəti məqsədilə malların satışı ilə bağlı ticarət fəaliyyəti;
**2.5. Elektron ticarət** – informasiya sistemlərindən (internet, ekstranet və s.) istifadə edilməklə malların alqı-satqısı üzrə həyata keçirilən fəaliyyət;
**2.6. POS-terminal** – ödəniş kartları vasitəsilə əməliyyatların aparılması üçün nəzərdə tutulmuş avadanlıq;
**2.7. Muzdla işləyənlər** - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər;
**2.8. Əməkhaqqı** - müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu.

### 3. Hesabat formasının doldurulmasına dair izahat

#### 3.1. I bölmə. Ümumi iqtisadi göstəricilər

**3.1.1.** Hesabat formasının I bölməsində hesabatı təqdim edən statistik vahidin hesabat rübü üzrə ümumi iqtisadi göstəriciləri əks etdirilir.

**3.1.2.** ***1-ci sətirdə*** hesabatı təqdim edən statistik vahid satış məqsədilə kənardan aldığı malların, həmçinin öz istehsalı olan malların satışından, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə etdiyi gəlirlərin məbləğini (ƏDV və aksiz vergisi çıxılmaqla) əks etdirir. Satış vəsaitin mal satanın hesabına daxil olub-olmamasından asılı olmayaraq, mülkiyyət hüququnun sifarişçiyə keçdiyi anda qeydə alınır. Satış məqsədilə kənardan alınmış malların satışından əldə edilən gəlirin məbləği malların alış dəyərini və ticarət əlavəsini özündə birləşdirir. ***1.1-ci sətirdə*** pərakəndə və topdansatış ticarət fəaliyyətindən, ***1.2-ci sətirdə*** avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmətlərdən, ***1.3-cü sətirdə*** kənd təsərrüfatı, ***1.4-cü sətirdə*** sənaye, ***1.5-ci sətirdə*** tikinti, ***1.6-cı sətirdə*** nəqliyyat, ***1.7-ci sətirdə*** isə digər fəaliyyət növləri üzrə əldə edilmiş gəlirin məbləği qeyd edilir.

**3.1.3.** ***2-ci sətirdə*** 1-ci sətirdən malların ixracından və qeyri-rezidentlərə göstərilmiş xidmətlərdən gəlirin məbləği göstərilir. İxrac edilən malların (işlərin, xidmətlərin) dəyəri müqavilədə göstərilən qiymətlər əsasında, malın göndərilmə tarixinə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə manata çevrilməklə göstərilir.

**3.1.4.** ***3-cü sətirdə*** 1.1-ci sətirdən statistik vahidin topdansatış ticarətdə müqavilə əsasında vasitəçilik fəaliyyəti nəticəsində ƏDV və aksiz vergisi çıxılmaqla əldə etdiyi gəlir göstərilir.

**3.1.5.** ***4-cü sətirdə*** ƏDV və aksiz vergisi daxil olmaqla ümumi pərakəndə ticarət dövriyyəsi, ***4.1-ci sətirdə*** isə ümumi pərakəndə ticarət dövriyyəsindən ərzaq malları, içkilər və tütün məmulatları üzrə dövriyyə göstərilir.

**3.1.6.** ***5-ci sətirdə*** ümumi pərakəndə ticarət dövriyyəsindən elektron ticarət dövriyyəsi göstərilir.

**3.1.7.** ***6-cı sətirdə*** ümumi pərakəndə ticarət dövriyyəsindən POS-terminal vasitəsilə ödənilmiş satışın dəyəri göstərilir.

**3.1.8.** ***7-ci sətirdə*** ümumi pərakəndə ticarət dövriyyəsindən yerli istehsal malları üzrə dövriyyə göstərilir.

**3.1.9.** ***8-ci sətirdə*** ümumi pərakəndə ticarət dövriyyəsindən kreditlə satılmış malların dəyəri qeyd edilir.

**3.1.10.** ***9-cu sətirdə*** hesabat rübünün sonuna pərakəndə ticarət üzrə ƏDV və aksiz vergisi daxil olmaqla mal ehtiyatlarının qalığı göstərilir.

**3.1.11.** ***10-cu sətirdə*** ƏDV və aksiz vergisi daxil olmaqla ümumi topdansatış ticarət dövriyyəsi, ***10.1-ci sətirdə*** isə ondan ərzaq malları, içkilər və tütün məmulatları üzrə dövriyyə göstərilir.

**3.1.12.** ***11-ci sətirdə*** ümumi topdansatış ticarət dövriyyəsindən elektron ticarət dövriyyəsi göstərilir.

**3.1.13.** ***12-ci sətirdə*** ümumi topdansatış ticarət dövriyyəsindən yerli istehsal malları üzrə dövriyyəsi göstərilir.

**3.1.14.** ***13-cü sətirdə*** hesabat rübünün sonuna topdansatış ticarət üzrə ƏDV və aksiz vergisi daxil olmaqla mal ehtiyatlarının qalığı göstərilir.

**3.1.15.** ***14-cü sətirdə*** ƏDV daxil olmaqla əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, ***14.1-ci sətirdə*** isə əhaliyə göstərilmiş ödənişli xidmətlərə görə elektron ödəmələrin dəyəri göstərilir.

**3.1.16.** *15-ci sətirdə* ƏDV daxil olmaqla ictimai iaşənin dövriyyəsi göstərilir. Bu sətirdə statistik vahidin iaşə obyektində həm öz istehsalı olan kulinariya məhsullarının satışının, həm də kənardan alınaraq emal olunmadan satılmış malların, içki və tütün məmulatlarının dəyəri göstərilir.

## 3.2. II bölmə. Digər iqtisadi göstəricilər

**3.2.1.** *16-cı sətirdə* statistik vahidin əsas fəaliyyət növü və qeyri-əsas fəaliyyət növləri üzrə çəkdiyi xərclərin ümumi məbləği, ***16.1-16.17-ci sətirlərdə*** isə həmin xərclərin istiqamətlər üzrə bölgüsü göstərilir.

**3.2.2.** *17-ci sətirdə* xalis gəlirin və ya zərərin (-) məbləği qeyd edilir.

**3.2.3.** *18-ci sətirdə* muzdla işləyənlərin orta siyahı sayı, *18.1-ci və 18.2-ci sətirlərdə* isə onlardan müvafiq olaraq qadınların, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin orta siyahı sayı göstərilir. Muzdla işləyənlərin **orta siyahı sayı** - sosial və ödənişsiz məzuniyyətdə olan şəxslər istisna olmaqla muzdla işləyənlərin hesabat ayının qeyri-iş günləri də daxil hər bir təqvim günü üçün siyahı sayının cəminin hesabat ayındakı təqvim günlərinin sayına bölünməsindən alınan nisbətdir.

**3.2.4.** *19-cu sətirdə* muzdla işləyənlər tərəfindən işlənmiş adam-saatların miqdarı göstərilir. İşlənmiş adam-saatların miqdarı əsas işdə və əvəzçiliklə yerinə yetirilən işlərdə işçilər tərəfindən faktiki işlənmiş normal iş saatları ilə bərabər bayram və istirahət günləri işlənmiş iş saatları, həmçinin xidməti ezamiyyət vaxtı üzrə iş saatları da daxil olmaqla müəyyən edilir.

**3.2.5.** *20-ci sətirdə* məlumat yalnız IV rübə dair hesabatda göstərilməklə statistik vahidin mülkiyyətində olan əsas fondların ilin sonu vəziyyətinə olan dəyərini əks etdirir.

## 3.3. III bölmə. Ticarət şəbəkəsi

**3.3.1.** *21-ci sətirdə* statistik vahidin istifadəsində olan **ticarət obyektlərinin** sayı göstərilir.

**3.3.2.** *22-ci sətirdə* ticarət obyektlərinin ticarət sahəsi göstərilir. Ticarət sahəsi malların satılması və alıcıya xidmət göstərilməsi üçün ayrılmış sahələrin cəmidir.

**3.3.3.** *23-cü sətirdə* ticarət obyektlərinin ümumi sayından **iri ticarət mərkəzlərinin** (ticarət sahəsi 50 kv.m. çox olan) sayı göstərilir. Bura supermarket, yarmarka, ticarət cərgəsi və minimarket daxildir.

**3.3.4. 24-***cü sətirdə* iri ticarət mərkəzlərinin ticarət sahəsi qeyd edilir.

**3.3.5.** *25-ci sətirdə* ticarət obyektlərinin ümumi sayından **dükanların** (ticarət sahəsi 12 kv.m-dən 50 kv.m-ə qədər olan) sayı göstərilir.

***3.3.6. 26-cı sətirdə*** ticarət sahəsi 12 kv.m-dən 50 kv.m-ə qədər olan ərzaq və qeyri-ərzaq malları dükanlarının ticarət sahələri qeyd edilir.

**3.3.7.** *27-ci sətirdə* ticarət obyektlərinin ümumi sayından köşklərin sayı göstərilir. Köşk – bir işçi yerinə malik olan, malların saxlanması üçün əlavə otaq sahəsi olmayan qapalı (yarımqapalı), kiçik qurğu və ya tikilidir.

**3.3.8.** *28-ci sətirdə* apteklərin sayı göstərilir.

**3.3.9.** *29-cu sətirdə* ərzaq malları saxlanılan anbarların sayı göstərilir.

**3.3.10.** ***30-cu sətirdə*** ərzaq malları anbarlarının sahəsi göstərilir.

**3.3.11**. ***31-ci sətirdə*** ərzaq malları anbarlarının həcmi göstərilir.

**3.3.12.** ***32-ci sətirdə*** qeyri-ərzaq malları saxlanılan anbarların sayı göstərilir.

**3.3.13.** ***33-cü sətirdə*** qeyri-ərzaq malları anbarlarının sahəsi göstərilir.

**3.3.14**. ***34-cü sətirdə*** qeyri-ərzaq malları anbarlarının həcmi göstərilir.

Anbarlar, soyuducu anbarlar ayrı-ayrı şöbələrə (kameralara) bölünübsə, o vaxt onların sayından asılı olmayaraq hesabatda bir anbar kimi göstərilir.

**3.3.15.** ***35-ci sətirdə*** yanacaqdoldurma məntəqələrinin sayı göstərilir.

**3.3.16.** ***36-cı sətirdə*** avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmət obyektlərinin sayı göstərilir.

**3.3.17.** Bu bölmə üzrə göstəricilər hesabat ilinin sonu vəziyyətinə məlumatları əks etdirməklə IV rübə dair hesabatda qeyd edilir.

**3.4. IV bölmə. Satılmış malların və göstərilmiş xidmətlərin strukturu**

**3.4.1.** Bu bölmədə statistik vahidin hesabat dövründə satdığı malların və göstərdiyi xidmətlərin növlər üzrə bölgüsü yazılır. Mal və xidmətlərin bölgüsü Dövlət Statistika Komitəsi kollegiyasının 2018-ci il 31 oktyabr tarixli 9/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Məhsul Növləri Təsnifatı" əsasında tərtib edilərək hesabat formasına əlavə edilmiş siyahıya uyğun aparılır.

**3.4.2.** ***Bölmənin "A" sütununda*** mal və xidmət növlərinin kodları, ***"B" sütununda*** isə adları yazılır.

**3.4.3.** ***"C" sütununda*** satışın pərakəndə və ya topdansatış qaydada həyata keçirilməsini, habelə xidmət göstərilməsini müəyyən etmək məqsədilə aşağıdakı şərti kodlardan istifadə edilir: xidmətlər üzrə - "60", pərakəndə satış üzrə - "70", topdansatış üzrə - "80".

**3.4.4.** ***1-ci sütunda*** hesabat rübündə satılmış malların və göstərilmiş xidmətlərin mal və xidmət növləri üzrə dəyəri göstərilir.

**3.4.5.** ***2-ci sütunda*** hesabat rübünün sonuna ticarət şəbəkəsində mal ehtiyatlarının mal növləri üzrə qalığının dəyəri göstərilir. Xidmətlər üzrə bu sütun doldurulmur.

**3.4.6.** ***IV bölmənin*** göstəriciləri ilə ***I bölmənin*** göstəriciləri arasında aşağıdakı riyazi əlaqələr vardır:

***"I bölmə. Ümumi iqtisadi göstəricilər" üzrə*****:** 1) **1.2-ci sətrin məlumatı IV bölmənin** 1-ci sütunu üzrə "C" sütununda "60" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 2) **4-cü sətrin məlumatı IV bölmənin** 1-ci sütunu üzrə "C" sütununda "70" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 3) 9**-cu sətrin məlumatı IV bölmənin** 2-ci sütunu üzrə "C" sütununda "70" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 4) **10-cu sətrin məlumatı IV bölmənin** 1-ci sütunu üzrə "C" sütununda "80" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 5) **13-cü sətrin məlumatı IV bölmənin** 2-ci sütunu üzrə "C" sütununda "80" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə bərabər olmalıdır.